# Azərbaycanlı rejissor Qazaxıstanda Dostoyevskinin əsərinə quruluş verib






Mikayıl Mikayılov Qazaxıstanda növbəti tamaşaya quruluş verib. K.S.Stanislavski adına Karaqanda Rus Dram Teatrında hazırlanan tamaşa F.M.Dostoyevskinin “Dayımın yuxusu” povesti əsasında səhnələşdirilib. Rejissor “Dostoyevski FM: Mordasovun xronikaları” adlandırdığı səhnə əsərinin janrını “iki hissəli skandal-karnaval” kimi təyin edib. Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayevdir. Rolları Denis Çvetkov, Qalina Turçina, Oksana İqnatenko, Anna Abuzarova, Alyena Volox, Pavel Kondratyev, Valentina Şmatenko, Svetlana Potyemkina, Nina Kruçevic, Yuliya Ulıbışeva ifa edirlər. Tamaşanın premyerası 20-21 aprel tarixlərində baş tutub.

Kaspi 2019.- 25 aprel.- S.11.